NEQSOL
HOLDING

Sənəd No: NH-BV-CGC-COC-EN-001
Tarix: 14.05.2025

# DAVRANIŞ KODEKSİ

2025

NEQSOL

HOLDING

## MÜNDƏRİCAT

1. MƏQSƏD. KODEKS NƏ ÜÇÜN LAZIMDIR? ..... 5
2. BU KODEKS KİMƏ ŞAMİL EDİLİR? ..... 5
3. SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT ..... 5
4. HÖRMƏT VƏ MÜXTƏLİFLİK ..... 6
5. NÜFUZUMUZ ..... 7
6. RÜŞVƏTXORLUQ VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ, MALİYYƏ CİNAYƏTLƏRİNİN QARŞISININ ALINMASI VƏ BEYNƏLXALQ TİCARƏT QAYDALARI ..... 9
7. RƏQABƏT VƏ İNHİSARÇILIQ ..... 10
8. MARAQLARIN TOQQUŞMASI ..... 11
9. AKTİVLƏR VƏ MALİYYƏ BÜTÖVLÜYÜ ..... 11
10. İCMALAR VƏ CƏMİYYƏT ..... 12
12. KODEKSİN POZULMASI VƏ İNTİZAM TƏDBİRLƏRİ ..... 14
13. KODEKSƏ ƏLAVƏLƏR ..... 14

Əziz həmkarlar,

Davranış Kodeksimizə xoş gəlmisiniz. Kodeks, "NEQSOL Holding" və onun Qrupunun tərkibinə daxil olan şirkətlərdə fəaliyyət göstərən hər kəsə biznesdə düzgün qərarlar qəbul etmək və müvafiq tədbirlər görməkdə kömək etmək və istiqamət göstərmək məqsədi ilə tərtib edilmişdir. Davranış Kodeksi bizim hər birimizin əməl etməli olduğumuz təməl dəyərlərimizi və prinsiplərimizi ehtiva edir.

Təməl dəyərlərimizə sadiq qalaraq, biz maraqlı tərəflər və dünya miqyaslı biznes subyektləri arasında yüksək nüfuz qazanmağı hədəfləyirik.

"NEQSOL Holding" müxtəlif ölkələrdə və sənaye sahələrində fəaliyyət göstərən çoxşaxəli şirkətlər qrupudur. Holdinq enerji, telekommunikasiya, yüksək texnologiya və tikinti sənayelərini əhatə edən biznes əməliyyatlarına nəzarət edir.

Hal-hazırda, "NEQSOL Holding"in tərkibinə yüksək səriştə və zəngin təcrübə sayəsində müvafiq bazarlarda lider mövqelərə malik olan çoxsaylı əməliyyat şirkətləri daxildir. Şirkətlərimizin əməliyyatlar həyata keçirdiyi və xidmət göstərdiyi coğrafi əraziyə Böyük Britaniya, ABŞ, Ukrayna, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, BƏƏ, Niderland və digər ölkələr daxildir. "NEQSOL Holding" həm yeni coğrafiyalara, həm də biznes sahələrinə sərmayə qoyaraq biznes fəaliyyətini genişləndirməyə davam edir.

"NEQSOL Holding" insan kapitalını özünün ən mühüm sərvətlərindən biri hesab edən 10000-dən çox əməkdaşdan ibarət peşəkar komandaya malik beynəlxalq holdinqdir.

NEQSOL

HOLDING

Mən sizi Davranış Kodeksini oxumağa, başa düşməyə və hər zaman ona əməl etməklə fəaliyyət göstərməyə dəvət edirəm.

Əgər Davranış Kodeksimizin pozulduğuna dair şübhələriniz varsa, tərəddüd etmədən səsinizi ucaldın və Korporativ İdarəetmə və Uyğunluq Departamentinə məlumat verməkdən çəkinməyin.

Təməl dəyərlərimizə və prinsiplərimizə əməl edildiyindən əmin olmaq üçün gəlin hamımız birlikdə çalışaq. Dürüstlük və şəffaflığa göstərdiyiniz sadiqliyə görə təşəkkürümüzü bildiririk.

Yusif Cabbarov
Baş İcraçı Direktor
"NEQSOL Holding"

## 1. MƏQSƏD. KODEKS NƏ ÜÇÜN LAZIMDIR?

"NEQSOL Holding"in (Holdinq) Davranış Kodeksi (Kodeks) şirkətimiz tərəfimizdən biznesin həyata keçirilməsinə istiqamət verir. Kodeks, həmçinin bütün işçilərindən və Holdinq üçün fəaliyyət göstərən hər kəsdən gözlənilən davranış standartlarını müəyyən edir. Kodeks düzgün qərarlar qəbul etməyimizə kömək edir və köməyi harada axtarmalı olduğumuzu bildirir.

Bu Kodeksin məqsədi Holdinqin ümumi etik prinsiplərini müəyyən etməkdir. Bu etik prinsiplər Kodeksin ayrılmaz hissəsi olan Holdinqin siyasətlərində daha ətraflı şəkildə təsvir edilmişdir.

Kodeks bütün vəziyyətləri əhatə edə bilməz. Müvafiq fəaliyyət forması barədə şübhələriniz varsa, Korporativ İdarəetmə və Uyğunluq Şöbəsindən məsləhət almağınız tələb olunur.

## 2. BU KODEKS KİMƏ ŞAMİL EDİLİR?

Kodeks bilavasitə Holdinqin və Qrupun tərkibinə daxil olan şirkətlərin bütün işçilərinə, onun vəzifəli şəxslərinə və Direktorlar Şurasının üzvlərinə şamil edilir. Kodeksin tələbləri ilə tanış olmaq və onlara riayət etmək hər bir bu cür şəxsin vəzifəsidir.

Biz bütün maraqlı tərəflərimizdən, o cümlədən podratçılar, xidmət təminatçıları, birgə müəssisələr və onların əməkdaşlarından bu Kodeksə uyğun hərəkət etməyi gözləyir və təşviq edirik.

## 3. SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT

NEQSOL
HOLDING

**BİZ TƏHLÜKƏSİZLİK, İNSANLARA VƏ ƏTRAF MÜHƏTƏ ZƏRƏR VERMƏMƏYİ ÖHDƏMİZƏ GÖTÜRÜRÜK**

Holdinq insanların sağlamlığını və təhlükəsizliyini qorumaq, biznesi təhlükəsiz idarə etmək və ətraf mühiti qorumaq əzmindədir. Əməkdaşlarımızın və ətraf mühitin mühafizəsi həm də hər bir işçinin məsuliyyətidir. Biz hər bir işçidən sağlamlıq və əməyin təhlükəsizliyi üzrə tələblərdən və hər hansı sahəyə aid qaydalardan xəbərdar olmalarını, onlara riayət etmələrini və hər hansı narahatlıq, tələblərin pozulması və ya təhlükəli hallar barədə məlumat vermələrini xahiş edirik.

Biz bədbəxt hadisələrin, xəsarətlərin və peşə xəstəliklərinin qarşısını almaq üçün mümkün olan hər şeyi etməyə çalışırıq. Biz istər əmək müqaviləsi, istərsə də xidmət müqaviləsi əsasında işləyən bütün işçilərin, onların harada işləmələrindən asılı olmayaraq, hər iş gününün sonunda evlərinə sağ-salamat qayıtmasını təmin etməyə çalışırıq.

Biz fəaliyyət göstərdiyimiz təbii mühitə hörmət edir və ekoloji risklərimizi müəyyən edir, qiymətləndirir və idarə edirik. Biz fəaliyyət sahələrimizdə tətbiq olunan ekoloji qanunlara və tələblərə riayət edirik.

## 4. HÖRMƏT VƏ MÜXTƏLİFLİK

**GÜCÜMÜZ ƏMƏKDAŞLARIMIZDIR. İNSANLARA HÖRMƏTLƏ YANAŞIR VƏ ZORAKILIĞA DÖZÜMSÜZLÜK NÜMAYİŞ ETDİRİRİK**

Çoxşaxəli və inklüziv mühit mədəniyyətimizin və uğurumuzun əsasını təşkil edir. Biz bütün işçilərə ləyaqət və hörmətlə yanaşılmasını təmin etməyə çalışırıq.

Biz təhlükəsiz və peşəkar mühitləri dəstəkləyirik və hər hansı sui-istifadə, hədə-qorxu və ya təqiblərə imkan vermirik. Biz ayrı-seçkiliyin istənilən formasını aradan qaldırmaq üçün addımlar atırıq və irq, din, cinsiyyət, yaş, milli mənşə, cinsi oriyentasiya, ailə vəziyyəti kimi amillərin mühakimələrimizə təsir etməsinə imkan vermirik.

## 5. NÜFUZUMUZ

### BİZ VİCDANLA HƏRƏKƏT EDİRİK VƏ NÜFUZA XƏLƏL GƏTİRMİR VƏ/VƏ YA DİGƏR ZİYANA SƏBƏB OLMURUQ

***Daxili və Xarici Əlaqələr***

Holdinq öz fəaliyyətini Holdinqin və Qrupun tərkibinə daxil olan şirkətlərin yüksək nüfuzunu gücləndirəcək və dəstəkləyəcək şəkildə təşkil edir. Biz həqiqətə uyğun olmayan heç bir informasiyanı paylaşmırıq və ya məlumatları yaymırıq.

Bütün daxili və xarici əlaqələr hər zaman Holdinqin siyasətlərinə, o cümlədən onun **Korporativ İdarəetmə üzrə Çərçivə Təlimatına** uyğun olmalıdır.

Yalnız təyin edilmiş şəxslər Holdinqin fəaliyyətini kütləvi informasiya vasitələri və ya hər hansı dövlət qurumları ilə müzakirə edə bilər. Holdinqin maliyyə və ya digər məlumatları ilə bağlı bütün kənar sorğular şirkətlərin səlahiyyətli şəxslərinə yönləndirilməlidir.

NEQSOL HOLDING

Biz sosial mediadan istifadə edərkən diqqətli olmalıyıq və **Holdinqin Xarici Əlaqələr Siyasəti** və Holdinqin məxfi məlumatlarının açıqlanması üçün tətbiq edilən digər siyasətləri ilə müəyyən edilmiş heç bir müddəanı pozmamalıyıq.

***Məxfilik və Məlumatların mühafizəsi***

Biz məxfi məlumatların qeyri-qanuni şəkildə açıqlanmasından qoruyuruq və məxfi məlumatların hər hansı şəkildə açıqlanması üzrə səlahiyyətlərin verilməsi həmin məlumatı öz işlərini yerinə yetirmək üçün ehtiyacı olan şəxslərlə məhdudlaşmalıdır.

Biz bütün əməkdaşlarımızın, müştərilərimizin və digər maraqlı tərəflərin məxfiliyinə hörmət edirik və onu təmin etməyə çalışırıq. Biznes fəaliyyətimizin şəxsi məlumatlardan istifadəni tələb etdiyi hallarda, həmin məlumatlardan istifadə məlumatların toplanması, istifadəsi və saxlanmasını müəyyən edən bütün qanunlara riayət etməklə həyata keçiriləcək.

***Müştərilər və Biznes tərəfdaşları***

Biz öz müştərilərimizlə və biznes tərəfdaşlarımızla vicdan, hörmət və məsuliyyət əsasında əməkdaşlıq edirik.

Bizim biznes tərəfdaşlarımızdan Holdinq üçün həyata keçirdikləri biznesə aid olan bütün qanun və qaydalara, o cümlədən Təchizatçıların Davranış Kodeksinə riayət etmələri gözlənilir. Biz öz biznesimizi Təhlükəsizlik, Hörmət, Dürüstlük və Davamlı İnkişaf kimi təməl dəyərlərimizi rəhbər tutaraq həyata keçiririk. Biz öz biznes tərəfdaşlarımızdan da eyni yanaşmanı gözləyirik.

Holdinq üçün malların və xidmətlərin satın alınması zamanı biz ləyaqətə əsaslanan qərarlar qəbul edirik, maraqların

toqquşmasından, qeyri-qanuni hədiyyələrdən və qonaqpərvərlikdən (xüsusilə davam edən tender prosesi zamanı) və ya hər hansı digər növ favoritizmdən yayınırıq.

## 6. RÜŞVƏTXORLUQ VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ, MALİYYƏ CİNAYƏTLƏRİNİN QARŞISININ ALINMASI VƏ BEYNƏLXALQ TİCARƏT QAYDALARI

**BİZ RÜŞVƏT VƏ KORRUPSİYAYA SIFIR DÖZÜMLÜLÜK NÜMAYİŞ ETDİRİR VƏ HƏMİŞƏ QANUNVERİCİLİYƏ RİAYƏT EDİRİK**

Biz rüşvətxorluq və korrupsiyanın heç bir formasını qəbul etmirik. Holdinq hökumətlər və hökumətin rəsmi şəxsləri ilə açıq və dürüst davranmağı və korrupsiyaya yol verməməyi qarşısına məqsəd qoyur.

Rüşvət, "kikbək" (alınan məbləğin bir hissəsinin gizli şəkildə qaytarılması) və ya hər hansı digər qeyri-qanuni ödənişləri, o cümlədən fasilitasiya ödənişləri (vasitəçiliyə görə ödənişləri) təklif və ya qəbul etməyin. Mühasibat uçotu kitablarımızın və qeydlərimizin dəqiqliyini təmin edirik ki, bütün ödənişlər vicdanlı şəkildə təsvir olunsun.

Biz hər hansı biznes, xidmətlər, məxfi məlumat, Holdinq üçün hər hansı digər üstünlük müqabilində və ya qərarlara təsir etmək niyyəti olduqda hədiyyələr və ya qonaqpərvərlik qəbul etmir və ya təqdim etmirik.

Biz qlobal miqyasda çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizəyə qoşuluruq və maliyyə cinayətlərinin qarşısını almaq üçün müvafiq tədbirlər görürük. Qarşı tərəfin kompleks qiymətləndirmə (due diligence) prosedurlarına əməl etməklə kiminlə iş apardığımızı həmişə öyrənməyə çalışırıq.

Siz bizim rüşvətxorluq və korrupsiya ilə mübarizə üzrə öhdəliklərimizlə **Holdinqin Rüşbətxorluğa və Korrupsiyaya qarşı Mübarizə Siyasətində** tanış ola bilərsiniz.

Biz bütün tətbiq olunan sanksiyalara və ticarətə nəzarət mexanizmlərinə, habelə **Holdinqin Sanksiyalar və Ticarətə Nəzarət Siyasətinə** uyğun olaraq iqtisadi sanksiyalar və idxala/ ixraca nəzarət mexanizmlərinə riayət edirik. Sanksiyalar ölkələri, sektorları, qurumları və fərdləri hədəfə ala və tez-tez dəyişə bilər, buna görə də onların tətbiq edilib-edilməməsinə və necə tətbiq olunduğuna dair şübhələr yarandıqda, suallarınızı rahatlıqla ünvanlayın.

## 7. RƏQABƏT VƏ İNHİSARÇILIQ

### RƏQABƏTƏ QARŞI MÜBARİZƏ TƏCRÜBƏLƏRİ FƏALİYYƏTİMİZƏ XƏLƏL GƏTİRƏ BİLƏR

Biz azad və ədalətli rəqabəti dəstəkləyirik.

Biz heç bir zaman rəqiblərimizə aid məxfi məlumatları axtarmır, qəbul etmir və ya onlarla müzakirə etmirik. Biz tenderləri saxtalaşdırmaq, qiymətlərdə düzəliş etmək, təchizatı məhdudlaşdırmaq və ya bazarları paylaşdırmaq üçün heç bir tənzimləmə prosesində iştirak etmirik.

Biz biznes uğrunda ədalətli və vicdanla rəqabət aparır və fəaliyyət göstərdiyimiz yerlərdə antiinhisar və rəqabət haqqında qanunlara riayət edirik. Bu qanunlar mürəkkəbdir, ona görə də onların tətbiq edilib-edilməməsinə və necə tətbiq olunduğuna dair şübhələr yarandıqda, kömək üçün müraciət etməyiniz tələb olunur.

NEQSOL
HOLDING

## 8. MARAQLARIN TOQQUŞMASI

### BİZ MARAQLARIN TOQQUŞMASI HALLARINI PROAKTİV ŞƏKİLDƏ İDARƏ EDİRİK

Maraqların toqquşması o zaman baş verə bilər ki, bizim maraqlarımız və ya fəaliyyətlərimiz Holdinq üçün obyektiv qərarlar qəbul etmək qabiliyyətimizə təsir edir. Biz bu cür toqquşma yarada biləcək vəziyyətləri və ya hətta maraqların toqquşmasına səbəb ola biləcək şübhəli halları Holdinqin Korporativ İdarəetmə və Uyğunluq Şöbəsinə bildiririk. Bu cür halların açıqlanması sayəsində biz **Holdinqin Maraqların Toqquşması Siyasətinə** uyğun olaraq toqquşma risklərini lazımi şəkildə həll etmək və azaltmaq imkanı qazanırıq.

Biz xatırladırıq ki, maraqların toqquşması vəziyyətində olmaq özü özlüyündə səhv davranış hesab edilmir. Kodeksdə müəyyən edilən səhv davranış bu cür toqquşma hallarının açıqlanmamasını və idarə olunmamasını nəzərdə tutur.

## 9. AKTİVLƏR VƏ MALİYYƏ BÜTÖVLÜYÜ

### BİZ "NEQSOL HOLDING"İN ƏMLAKINI QORUYUR VƏ MALİYYƏ BÜTÖVLÜYÜ ƏSASINDA FƏALİYYƏT GÖSTƏRİRİK

Biz Holdinq qarşısında onun resurslarını və əmlakını qorumaq və onlardan ən yaxşı şəkildə istifadə etmək öhdəliyi daşıyırıq. Biz Holdinqin əmlakının sui-istifadə və ya israf edilməməsini təmin etmək üçün düzgün mülahizədən istifadə etməyə cavabdehik. Holdinqin əmlakına binalar, avadanlıqlar və kompüterlər kimi fiziki əmlak, həmçinin iş saatları, məlumatlar və maddi vəsait daxildir. Biz

Holdinqin resurslarını öz əmlakımız kimi mühafizə etməli, sui-istifadə, itki, saxtakarlıq və ya oğurluq hallarından qorumalıyıq.

Biz bütün maliyyə qərarlarının və əməliyyatlarının **səlahiyyətlərin müvafiq şəkildə ötürülməsi** əsasında qəbul edilməsi və həyata keçirilməsini təmin edirik.

Holdinqdə biznesi idarə etmək üçün ədalətli və dəqiq hesabatların aparılması vacibdir. Biz bütün maliyyə qeydlərinin və qeyri-maliyyə məlumatlarının tam, dəqiq və obyektiv olmasını təmin edirik. Verdiyimiz maliyyə və biznes məlumatları hüquqi, maliyyə, qanunvericilik və idarəetmə tələblərinə cavab verməlidir.

## 10.İCMALAR Və CəMİYYəT

**BİZ YERLİ İCMALARIN TƏLƏBLƏRİNİ NƏZƏRƏ ALIR VƏ DAHA DAYANIQLI HƏYAT ŞƏRAİTİNƏ TÖHFƏ VERİRİK**

Biz öz biznesimizi həm qarşılıqlı əlaqədə olduğumuz insanlara, həm də icmalara hörmət əsasında həyata keçiririk. Biz daha geniş inkişaf məqsədlərinə töhfə verməklə və ətraf mühitə təsirləri azaltmaqla biznesimizi həyata keçirdiyimiz hər bir cəmiyyətdə müsbət rol oynamaq üçün hökumətlər və icmalarla əməkdaşlıq edirik.

Biznes modelimizin gələcəkdə də davamlı olmasını təmin etmək üçün əməliyyatlarımız boyu Ekoloji, Sosial və İdarəetmə (ESG) prinsiplərini tətbiq etməyə çalışırıq.

## 11. MəLUMAT VERMə VəZİFəSİ

**BİZ BAŞQA VASİTƏLƏR AXTARMIRIQ - BİZ FİKRİMİZİ BİLDİRİRİK!**

NEQSOL
HOLDING

Bu Kodeksi, Holdinqin tələblərini, siyasətlərini, prosedurlarını və ya hər hansı qanunları poza biləcək hər hansı halı müşahidə etdiyimiz zaman, bu haqda məlumat vermək hər birimizin vəzifəsidir.

Heç bir davranış kodeksi bütün mümkün vəziyyətləri əhatə edə bilmədiyi üçün, Holdinq bizim sağlam mühakimə yürüdəcəyimizə və suallarımız və ya narahatlığımız olduqda fikrimizi bildiricəyimizə inanır.

Holdinq vicdanla məlumat verən istənilən şəxsə qarşı qisasçılığa dözümsüzlük nümayiş etdirir.

**Uyğunluq üzrə Qaynar Xətt kanallarımız** - aşağıdakı onlayn (anonim) məlumat vermə vasitəsi, telefon, elektron poçt və poçt ünvanı 7/24 rejimində fəaliyyət göstərir:

**Vebsayt:** https://www.neqsolholding.com/about-holding/compliance/
**Telefon:**
Niderland**:** 0800 2500101 (xarici/anonim) və ya +31 6 2511 2528
Azərbaycan: +994 55 4422424
**E-poçt:** compliance@neqsolholding.com
**Poçt ünvanı:**
Niderland, Amsterdam, 1081LA, Qustav Mahlerlaan 1212, NoMa House
Azərbaycan, Bakı, 8 Noyabr prospekti 113, "Baku Bay Tower"

Məlumat vermə prosesinin idarə edilməsi haqqında daha ətraflı məlumatla **Holdinqin Məlumat Vermə Siyasətində** tanış ola bilərsiniz.

## 12.KODEKSİN POZULMASI VƏ İNTİZAM TƏDBİRLƏRİ

### BİZ KODEKSİN İSTƏNİLƏN ŞƏKİLDƏ POZULMASINA CİDDİ YANAŞIRIQ

Bu Kodeksə riayət edilməməsi və ya onun hər hansı maddəsinin pozulması çox ciddi məsələ hesab olunur və intizam tənbehi, habelə işdən çıxarılma ilə nəticələnə bilər.

## 13.KODEKSƏ ƏLAVƏLƏR

### SİYASƏTLƏR VƏ PROSEDURLAR KODEKSİN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR

Korporativ İdarəetmə üzrə Çərçivə Təlimatı
Rüşvətxorluğa və Korrupsiyaya qarşı Mübarizə Siyasəti
Sanksiyalar və Ticarətə Nəzarət Siyasəti
Maraqların Toqquşması Siyasəti
Məlumat Vermə Siyasəti
Hədiyyələr və Qonaqpərvərlik Siyasəti
Sponsorluq Siyasəti
Təchizatçıların Davranış Kodeksi
Xarici Əlaqələr Siyasəti